Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi
birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 10-11

## AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT

### YUXARI YAŞ QRUPU

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- 1-10-cu suallar 3, 11-20-ci suallar 4, 21-30-cu suallar 5 balla qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Yarımfinal turunun nəticələrini 04.03.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1. Ə.Cavadın "Səsli qız" poemasına aid olan fikirlərin doğru (D) və yanlış (Y) ardıcıllığının düzgün verildiyi bəndi müəyyən edin.**

- İşğal olunmuş ölkənin əhalisinə ağlamaq qadağan edilmişdi.
- Düşmən şahın gəlişi qanuni bayram oldu.
- Ölkənin məğlub şahı xalqın arasında deyildi.
- Xoca mömin müsəlmanları beyətə hazır elədi.
- Sara zəhər qatdığı meyi şaha qorxmadan verdi.
- Ölkə azad edildikdən sonra kral tərəfindən idarə olunmağa başlandı.

A) DYYYDD B) YDYDDY
C) YYDYDD D) DDYDYD
E) DYDYDY

**2. "Hoppanmaq" sözünün təhlili ilə bağlı uyğunluğu müəyyən edin.**

| Doğru | Yanlış |
|---|---|
| 1. Eyni hərf müxtəlif səsləri ifadə edir.<br>2. Q hərfi tələffüz zamanı kar qarşılığına çevrilir.<br>3. Orfoqrafiyasında eynicinsli samit qoşalığının sayı birdir. | 4. Bütün hecaların son samiti yazılışından fərqli tələffüz olunur.<br>5. Müxtəlif hərflər eyni səsləri ifadə edir.<br>6. Sözün son samiti "qonaq gəlişi" birləşməsindəki asılı tərəfin son samiti ilə eynidir. |

A) 1, 2, 5 B) 1, 3, 4, 6 C) 2, 5, 6
D) 1, 3, 4 E) 1, 3, 6

**3. Hansı janrın son iki misrası bütün hallarda mütləq bir-biri ilə qafiyələnməlidir?**

A) mürəbbe
B) müxəmməs
C) müsəddəs
D) təcnis
E) təxmis

**4. M. F. Axundzadənin "Hekayəti-Müsyö Jordan..." əsərindən verilmiş cümlələrdə nöqtələrin yerinə uyğun gələn ifadələri müəyyən etməklə tamamlayın.**

**Müsyö Jordan.** Bir ildən az qalsa, getməyində mənzur olan fayda bilkülliyyə hüsula gəlməz; çünki ümdəsi .........

**Müsyö Jordan.** Bu saatda Təbrizdə oturan ingilis konsulundan sizin divanbəyiniz mənə kağız yetirdi; konsul bu əhvalatı bildirəndən sonra yazır ki, ........ vacibi kağızlar ilə bu saat çapar gedir.

A) kraldan ona bəxşeyiş almaqdır; Parisə
B) mərifət kəsb etməkdir; Tehrana
C) firəng dilini öyrənməkdir; Londona
D) onu kralımıza tanıtmaqdır; Təbrizə
E) Parisi görməkdir; Tehrana

**5. Fərqli ədəbi dövrə aid olan nümunəni müəyyənləşdirin.**

A) Bir nəğmə əsgərin dodaqlarında,
Sərhəd küləyinə həmsöhbət olar.
Bir nəğmə əsgərin barmaqlarında,
Tətiyə söykənən cəsarət olar.

B) Həyat dedikləri bu keşməkeşdən,
Qəlbimdə, qanımda yanan atəşdən,
Gecədən, gündüzdən, aydan, günəşdən,
Bu əngin fəzadan necə əl çəkim?

C) Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsli yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

D) Göydə karvan çəkərək
Sıx buludlar dolanır.
Hərə bir yer taparaq
Sığınıb daldalanır.

E) Bir ömür ki, kimsəyə
əziyyəti dəyməmiş olsun.
Bir ömür ki,
heç gileyə enməmiş,
heç kəs baş əyməmiş olsun.

**6. Aşağıda verilmiş hansı xüsusiyyətlər Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Cabbarlı üçün ortaqdır?**

1. Əsərlərini yalnız lirik və epik növdə yazmışdır.
2. Təmsil və mənzum hekayə müəllifidir.
3. Əruz vəznində yazdığı şeirlərdə məhəbbətin tərənnümünə yer vermişdir.
4. Satirik şeirlər qələmə almışdır.
5. Şeirlərini yalnız əruz vəznində yazmışdır.

A) 1, 2, 5 B) 3, 4 C) 2, 4
D) 2, 3, 5 E) 1, 5

**7. *"Gəlmək"* feilinin ifadə etdiyi mənalara görə uyğunluğu müəyyən edin.**

1. yaramaq, münasib olmaq
2. görünmək, təsəvvür edilmək
3. eşidilmək, hiss olunmaq
4. yaxınlaşmaq, çatmaq
5. zahir olmaq, görünmək

a. Azər haqqında danışılanlar ona yuxu kimi gəlirdi.
b.Yemək yeyəndən sonra uşağın yanaqlarına qırmızılıq gəlmişdi.
c. Bir müddətdən sonra qış gəlir, amma havalar hələ də xoş keçir.
d. Bu alətlər köhnəlib, daha mənim işimə gəlmir.
e. Otaqdan həzin musiqi səsi gəlirdi.

A) 1-b, 2-c, 3-e, 4-a, 5-d
B) 1-c, 2-e, 3-a, 4-d, 5-b
C) 1-b, 2-e, 3-d, 4-a, 5-c
D) 1-d, 2-a, 3-e, 4-c, 5-b
E) 1-d, 2-a, 3-c, 4-b, 5-e

**8. Tərkibində həm leksik, həm qrammatik şəkilçi işlənmiş hansı eyniköklü sözlərin heca və tərkibinə görə bölgüsü üst-üstə düşür?**

A) gülüstana, güllük, güldanlar
B) evdəkilər, evləndi, evcildir
C) sıxılmaq, sıxıcıdır, sıxanda
D) düzləşdi, düzlükdən, düzəldildi
E) yaşlaşmaq, yaşlıdan, yaşlılıqdır

**9. Ş.İ.Xətayinin "Dəhnamə" əsərindən verilmiş nümunələrin düzgün ardıcıllığını müəyyən edin.**

*1. Bir sayeyi-sərvi-nazə yetdim,*
*Bir ləhzə orada xabə getdim*
*2. Vargil, degil ol rəsulə gəlsün,*
*Ol sözləri nəqəbulə gəlsün.*
*3. Hər şey günəşə qurutdu yaşin,*
*Qövsi-qüzeh açdı tər qumaşın.*
*4. Qarşuda durur mələk yasavul,*
*Hər kimi ki görür, edir ki, savul*
*5. Qıldı məni-xəstəni məlamət,*
*Başıma qopardı yüz qiyamət*
*6. Qulluğa irişdi durdu bir dəm,*
*Könlüni aradı, gördü xürrəm.*

A) 1, 3, 6, 4, 5, 2 B) 2, 1, 3, 5, 6, 4
C) 6, 5, 4, 1, 2, 3 D) 3, 1, 4, 6, 2, 5
E) 1, 4, 2, 6, 5, 3

**10. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrünə aid fikirlərdən hansı *yanlışdır?***

A) Bu dövr ədəbiyyatı Cənubi Azərbaycan ədəbiyyatından fərqli olaraq tənqidi realizm, maarifçi realizm və romantizm istiqamətlərində inkişaf edirdi.
B) Azərbaycan ədəbiyyatında mənzum dram məktəbi yaranmışdır.
C) Ədəbi cəbhədə Azərbaycan-türk dünyası birliyinin ilk əməli addımları atılmışdır.
D) Romantik ədəbiyyatın nümayəndələri şəxsiyyət və cəmiyyət məsələlərində idealın tərənnümünə üstünlük verirdilər.
E) Satirik publisistika dövrün hadisəsi kimi meydana çıxmışdır.

**11-15-ci tapşırıqları mətnə əsasən cavablandırın.**

Azərbaycan Respublikasının Konstitusiyası

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbulu əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşür.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni konstitusiyanın hazırlanması zərurəti yarandı. Bunun üçün Prezident Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradılmış, konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. Bu yeni Konstitusiya 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

*Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanı –* ***respublika*** *idarəetmə formasına malik,* ***unitar, demokratik,*** *hüquqi,* ***dünyəvi*** *dövlət kimi müəyyən edir.* Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etməklə aşağıdakı prinsipləri müəyyən etdi:

- *İnsan, onun hüquq və azadlıqları ali dəyərlərdir (insan və vətəndaşın hüquq və azadlıqlarının tanınması, riayət olunması və müdafiəsi dövlətin vəzifəsidir);*
- *Suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır;*
- *Sosial siyasət insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaranmasına istiqamətlənib;*
- *Dövlət, xüsusi və bələdiyyə mülkiyyət formaları eyni qaydada tanınır və müdafiə olunur;*
- *Dövlət hakimiyyəti qanunverici, icraedici və məhkəmə hakimiyyəti bölgüsü əsasında həyata keçirilir;*
- *İdeoloji və siyasi müxtəliflik, çoxpartiyalılıq tanınır. Heç bir ideologiya dövlət və ya məcburi xarakterli ola bilməz;*
- *Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun qanunvericilik sisteminin tərkib hissəsidir.*

Zaman keçdikcə bir sıra zərurətlərdən irəli gələrək müəyyən vaxtlarda konstitusiyaya əlavə və dəyişikliklər edilmişdir. Konstitusiyaya ilk əlavə və dəyişikliklər 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 26 sentyabr 2016-cı ildə referendum yolu ilə edilib. 24 avqust 2002-ci ildə Konstitusiyanın 22 maddəsinə ümumilikdə 31, 2009-cu ilin martın 18-də keçirilən referendumla 29 maddəsinə ümumilikdə 41 əlavə və dəyişiklik edilib. 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyanın 23 maddəsinə əlavə və dəyişikliklər, habelə yeni 6 maddə əlavə edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir:

"Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin."

**11. Mətndə hansı sualların cavabı var?**

1. Konstitusiyaya edilən dəyişikliklərin konkret səbəbləri nə idi?
2. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsinin hüquqi əsası nədir?
3. Konstitusiyanın ümumxalq müzakirəsində iştirak edən insanların və ya qrupların fikirləri və töhfələri nələr olmuşdur?
4. Azərbaycan Respublikasının Konstitusiyasının digər ölkələrin konstitusiyaları ilə müqayisədə əsas fərqləri hansılardır?
5. Konstitusiya layihəsi necə hazırlanmışdır?

A) 2, 5 B) 1, 4 C) 3, 5 D) 2, 4 E) 1, 2

**12. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş prinsiplərlə bağlı aşağıdakı fikirlərdən hansı yanlışdır?**

A) Dövlət hakimiyyəti qanunverici, icraedici və məhkəmə hakimiyyətləri arasında bölünmüşdür.
B) Dövlət mülkiyyəti və xüsusi mülkiyyət bərabər əsaslarla qorunur və müdafiə edilir.
C) İnsan və vətəndaşın hüquq və azadlıqlarına riayət dövlətin əsas vəzifəsi kimi qəbul edilmişdir.
D) Suverenliyin yeganə daşıyıcısı Azərbaycan xalqıdır və xalqın iradəsi dövlət hakimiyyətinin mənbəyidir.
E) Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri milli qanunvericilikdən üstün tutulur.

**13. Mətnə əsasən uyğunsuzluğu seçin.**

A) Dövlət quruculuğunun hüquqi əsası konstitusiyada müəyyən edilir. − **Fakt**
B) Ölkəmizdə konstitusiya dəyişiklikləri yalnız referendumla gerçəkləşdirilmişdir. − **Fakt**
C) Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi Azərbaycan Respublikasının Prezidentinə yalnız hansısa ili hansısa əlamətdar hadisəyə həsr etmək barədə sərəncam vermək hüququ verir. – **Fakt**
D) Dövrün tələblərinə uyğun olaraq konstitusiyaya müəyyən əlavə və dəyişikliklər edilmişdir. – **Fakt**.
E) Azərbaycan Respublikasının idarəetmə forması Konstitusiya ilə müəyyən olunmuşdur. − **Fakt**

**14. Düzgün variantları müəyyən edin.**

| | | |
|---|---|---|
| 1. | Azərbaycan Respublikasında ilk konstitusiyanın qəbulu Azərbaycan Xalq Cümhuriyyəti dövrünə düşmür. | Doğru |
| 2. | Konstitusiyaya yalnız bir referendumda yeni maddələr salınıb. | Yanlış |
| 3. | Sərəncam Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qazanılmış qələbənin 5-ci ildönümünə həsr olunub. | Doğru |
| 4. | Ən çox konstitusiya maddəsinə əlavə və dəyişiklik son referendumda baş tutub. | Doğru |
| 5. | “Azərbaycan xalqı suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyidir” − Konstitusiyanın müəyyən etdiyi bu prinsip, xalqın dövlət quruculuğunda və idarəetməsində rolunu əsas götürür. | Yanlış |

A) 2, 4 B) 3, 5 C) 1, 3
D) 1, 4 E) 2, 3

**15. Mətndə fərqləndirilmiş sözlərlə əks məzmunda olan anlayışların müvafiq ardıcıllığını müəyyən edin:**

A) federativ, avtoritar, dini, monarxiya
B) monarxiya, federativ, avtoritar, dini
C) avtoritar, federativ, monarxiya, dini
D) monarxiya, avtoritar, federativ, dini
E) dini, federativ, avtoritar, monarxiya

**16. Hansı fikir [qaşdı] və [aşdı] sözləri üçün ortaq götürülə bilməz?**

A) Vurğusu fərqli hecalarda ola bilər.

B) Tərkibində sözdüzəldici şəkilçinin olduğunu əminliklə demək olmaz.

C) Bu sözləri üç fərqli nitq hissəsi kimi düşünmək olmaz.

D) Yazılışları fərqli ola bilər.

E) Sözlərdə heca sayı ikidir.

**17. Hər iki tərəfinin leksik omonimliyi olan söz birləşməsi işlənmiş cümlələri seçin.**

1. Çay mənsəbləri sadə, delta, estuari və asılı vəziyyətdə ola bilir.
2. Teatr izləyiciləri bu aktyorun repertuarını bəyənirdilər.
3. İki gözümüzün olması üçölçülü görməyə kömək edir.
4. Kitabdan və müəllimindən öyrəndiyi qaydaları tətbiq etməkdə çətinlik çəkmirdi.
5. Yaşlı çağlarında belə ağır işlə məşğul olması onu lap əldən salmışdı.

A) yalnız 1, 5 B) 1, 2, 5 C) yalnız 3, 4
D) 2, 3, 4 E) 3, 5

**18. Verilmiş cümlələrin hansı əsərlərə aid olduğunu müəyyən edin.**

*Həm ürəkləri boşalmış, həm də çantalarında gətirdikləri gilizləri, qəlpə qırıqlarını, daş mərmiləri buradaca töküb vermişdilər məktəbə.*

*Yəhəri belinə şələyib yalnız onun bələd olduğu, el yolundan uzaq, xəlvət cığırla addımladı.*

*Əliqulunun danışıqlarını məhəllədə çox adam əməlli-başlı başa düşmürdü və bu dəfə də bu sözlərə fikir verən olmadı.*

*Bərk atışma gedirdi, fədailərdən bəziləri hətta kəndin içinə girmişdi.*

*Amma Nikolayın razılığından sonra məlum oldu ki, belə bir məktəbi açmaq elə sən deyən asan iş deyilmiş.*

A) "Qanlı bənövşə", "Namərd gülləsi", "Dərs", "İntiqam", "Anamın kitabı"

B) "Vətən yaraları", "İntiqam", "Anabacı", "Namərd gülləsi", "Dərs"

C) "Vətən yaraları", "Nurəddin", "Anabacı", "Qanlı bənövşə", "Dərs"

D) "Dərs", "Zəhər", "Talvar", "Azad", "Zeynalabdin"

E) "Dərs", "Namərd gülləsi", "Anabacı", "İntiqam", "Açıq kitab"

**19. Verilmiş tabesiz mürəkkəb cümlələrin məna növlərini müəyyən etməklə nöqtələrin yerinə elə cümlə seçin ki, hər məna növünə uyğun cümlə sayı bərabər olsun.**

*1. Sərin meh ötür, balkonun önünə ucalmış qovaqlar xışıldayırdı. (S.Əhmədov)*
*2. Gecə keçəcək, sabah açılacaq və Saday qızı öz elinə, yurduna yola salacaq. (İ.Məlikzadə)*
*3. Qoca mənim əlimi buraxıb Ədiləyə tərəf getdi və mən bir balaca sakit oldum. (Elçin)*
*4. ....*

A) Gecə can verir, üfüqlər ağarır, kainat ərik təkin çiçəklənirdi. (M.Cəlal)

B) Əlini qaldırıb sədrə müraciət etmək fikrinə düşdü, elə bil qolları sınıb yanına düşmüşdü. (Ə.Vəliyev)

C) Baxdıqca insanın gözü qaralır,
Şair olmayan da xəyala dalır. (S.Vurğun)

D) Yəqin ona qulaq asan, inanan bir kişi tapılar və həmin kişi müşkül görünən işə əncam çəkər. (İ.Məlikzadə)

E) Su qurtarmaz, qara ağarmaz. (Atalar sözü)

**20. “Basatın Təpəgözü öldürdüyü boy”da Qapaqqanın həyat yoldaşı Basata Oğuzda baş verənlər haqqında məlumat verərkən Təpəgözü məğlub etmək istəyən bir neçə Oğuz igidinin adını çəkir. Hansı xüsusiyyətlər adı çəkilən bu igidlərdən ikisinə aiddir? (“Kitabi-Dədə Qorqud”un digər boyları nəzərə alınmaqla)**

1. Amidlə Mardin qalasını vurub yıxan, Oğuzun ağ saqqallı qocaları o igidə “əhsən” deyən...
2. Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən...
3. İcazəsiz Bayandır xanın düşmənini basan, ağ-boz atının yalı üzərində qar yığılan...
4. Amid soyunun aslanı, yazıqların ümidi, Qalın Oğuzun dayağı...
5. Əlli yeddi qalanın açarını alan, Sufi Sandal Məliyə qan qusduran...

A) 1, 5 B) 1, 3 C) 3, 5
D) 1, 2 E) 2, 4

**21. Hansı dəyişiklik(lər) edilərsə, cədvəldəki yanlışlıq aradan qalxar?**

| | | |
|---|---|---|
| 1. | Xalq danışıq dilinə yaxın olan bədii üslubda ritorik suallardan, bədii nidalardan, obrazın nitqini fərdiləşdirmək üçün sitatlardan, epiqraflardan geniş istifadə olunur. | Doğru |
| 2. | Elmi üslubda yazılan əsərlərin dili çətin olur, bu üslubda mətn yazmaq üçün dilin qrammatik quruluşunu bilmək vacib olmasa da, terminləri digər sözlərlə düzgün əlaqələndirmək lazımdır. | Doğru |
| 3. | Bədii üslubdan fərqli olaraq publisistik üslubda, adətən, terminlərdən, dialekt və loru sözlərdən istifadəyə yol verilmir. | Yanlış |
| 4. | Rəsmi-işgüzar üslubun lüğət tərkibi yığcam, sintaksisi məhdud, normalılığı möhkəm olur, cümlədə işlədilən feillər əmr, arzu, vacib, şərt şəkillərində olur. | Yanlış |

A) 1-ci cümlənin qarşısına *yanlış*, 3-cü cümlənin qarşısına *doğru* yazılmalıdır.
B) 2-ci cümlənin qarşısına *yanlış*, 4-cü cümlənin qarşısına *doğru* yazılmalıdır.
C) Yalnız 4-cü cümlənin qarşısına *doğru* yazılmalıdır.
D) Yalnız 3-cü cümlənin qarşısına *doğru* yazılmalıdır.
E) 2-ci cümlənin qarşısına *yanlış*, 3-cü cümlənin qarşısına *doğru* yazılmalıdır.

**22. Verilmiş aforizmləri ədəbi dilin normalarının pozulmasını nəzərə alaraq qruplaşdırın.**

1. Bilik o vaxt bilikdir ki, o, ağıl gücünə deyil, hafizə gücünə qazanılmışdır. (L.Tolstoy)
2. Uşaqlarına susmağı öyrət, danışmağı onlar özü də öyrənə bilər. (B.Franklin)
3. Ağıllı o adamdır ki, başqasının müdrükliyindən və təcrübəsindən öyrənir. (F.Manuil)
4. Qabınız kiçikdirsə, dəryanı günahlandırmağa haqqınız var. (C.Rumi)
5. Kimin ürəyi arzu və ümidlə doludursa, o, artıq gələcəkdə yaşayır. (L.Şeter)
6. İnsanlar sünbüllərə bənzəyir, içləri boş ikən başları havadadır, dolu ikən isə aşağıda. (Aristotel)

A) 1-2; 3-5; 4-6 B) 1-3; 2-4; 5-6
C) 1-5; 2-6; 3-4 D) 1-4; 2-6; 3-5
E) 1-6; 2-3; 4-5

**23. Cədvələ əsasən yanlış fikirləri müəyyən edin.**

| Yazılışında səhv yoxdur. | Yazılışında bir səhv var. | Yazılışında iki səhv var. |
|---|---|---|
| 1. Humanitar siyasət məsələləri şöbəsi | 4. Beynəlxalq Ana dili Günü | 7. Nəsimi adına Dilçilik İnstitutunun terminologiya şöbəsi |
| 2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri | 5. Azərbaycan Respublikasının Baş Naziri | 8. Bakı şəhər İcra hakimiyyəti |
| 3. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 6. Əməkdar İncəsənət xadimi | 9. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu |

A) 1, 3, 5, 7  B) 2, 4, 8  C) 2, 7, 9
D) 3, 6, 9  E) 1, 4, 6, 7

**24. Yanlış yazılmış isma aid doğru fikirləri müəyyən edin.**

- Aranjiman
- Aranjeman
- Buynuzvarı
- Kristaloqrafiya
- Pnevmoniya

1. Yanlışlıq saitin yazılışındadır.
2. Vurğu 4-cü hecanın üzərindədir.
3. Ahəng qanunu pozulub.
4. Qalın saitlərin sayı incə saitlərin sayından iki vahid fərqlənir.
5. İki yerdə samit qoşalığı var.

A) 1, 2, 3, 4  B) 2, 3, 4  C) 1, 3, 5
D) 1, 4, 5  E) 2, 4, 5

**25. M.Füzulinin "Leyli və Məcnun" əsəri ilə bağlı doğru fikri müəyyən edin.**

| | |
|---|---|
| A) | *Gər hasil olur bu kam səndən*<br>*Hər nə ki dilərsən, istə məndən* – Novfəlin Məcnunla söhbətindəndir. |
| B) | *Qanğı sözdə, ehtiqadım olsun,*<br>*Sənə necə etimadım olsun?* – Anası Leyliyə əvvəlcə inanmır və qızına bu sözləri deyir. |
| C) | *Mən bir quşam, uçdum aşiyandan*<br>*Mən qandanü meyli-xanə qandan?* – Atası Məcnunu səhrada taparkən Məcnunun atasına dediyi sözlərdir. |
| D) | *Məzur tut, ey sənəm, bu halım,*<br>*Tən eyləmə, verma intialım* – Məcnunu səhrada tanıyan Leyli ondan üzr istəyir. |
| E) | *Gər olsa zər ilə iş sərəncam,*<br>*Yük-yük tökəlim zər, alalım kam* – Məcnunun atası elçiliyə gedərkən Leylinin atasına bu təklifi edir. |

**26. Verilən sitatların aid olduğu obrazlardan birinin sosial təbəqəsi fərqlidir.**

A) Ay bivəfa, puç dünya! Bu az müddətdə gör necə gözəl oğlanlar bada gedib .....
B) ..... Dəxi məni təngə gətiriblər, ovqatım olub təlx, ələlxüsus biçarə ..... müsibəti məni hər şeydən artıq yandırır .....
C) ..... Xudaya, mən nə günah eyləmişdim ki, sən məni bu hala saldın? Nə qədər özümə söz verirəm, Qurana, kitaba and içirəm ..... olmur .....
D) ..... Evlərini Qars qalası eləsələr, yüz nəfər adam da orada olsa, genə gərək mən intiqamımı yerdə qoymayam .....
E) .....Vallahi, deyirəm, belə hərəkətlərə dürüst fikir verəndə belə görünür ki, guya biz müsəlman tayfaların üstə göydən lənətnamə yenib .....

**27. Sinonimlik baxımından uyğunsuzluğu müəyyən edin.**

A) Ağzını boza vermək – başdan eləmək
B) Altdan-üstdən danışmaq – nala-mıxa vurmaq
C) Lığ vermək – zığ vurmaq
D) Zəif nöqtə – Axilles dabanı
E) Boynu ətlənmək – bordağa bağlamaq

**28. C.Cabbarlının "Oqtay Eloğlu" əsərinin baş qəhrəmanına aid olan sitatların süjet ardıcıllığını müəyyən edin.**

1. Ox, neçin mən o zaman Karlın bıçağı ilə bu köksü parçalayıb da həqiqəti kəsdirmədim.
2. Bir insan idealı barmağında altın üzük gəzdirməz.
3. Ehtiyac təkamülün babasıdır. Xalq görsə ki, səhnəsində qadın yox, özü öz arasından tapar verər.
4. Tərəqqi etməmək – yaşamamaq deməkdir. İndilik səhnəmiz gəncdir.
5. Mən yenə ancaq bu zavallı xalqı tanıyır, ona müraciət edirəm. Ona təslim oluram.

A) 2, 4, 3, 1, 5 B) 4, 3, 2, 5, 1
C) 4, 1, 3, 2, 5 D) 5, 3, 4, 1, 2
E) 3, 2, 5, 4, 1

**29. Hansı sözün leksik mənasının izahı verilməyib?**

- *bilik, bacarıq və vərdişlərin inkişafına yönəlmiş fəal tədris metodu*
- *yuxarıya doğru getdikcə nazikləşən, yonulmuş daş sütundan ibarət abidə*
- *nəyinsə keyfiyyətini, dəyərini göstərən bir şey*
- *oxşatma, bir şeyin saxtasını düzəltmə*

A) məhək B) imitasiya
C) obelisk D) treninq E) qravüra

**30. "İskəndərnamə" (Nizami Gəncəvi) poemasına əsasən uyğunluğu müəyyən edin.**

1) "Şərəfnamə"
2) "İqbalnamə"

*a. "İskəndərin Keyxosrovun məqbərəsinə getməsi"*
*b. "İskəndərin təlim alması"*
*c. "Arşimides ilə çinli kənizin hekayəsi"*
*d. "İskəndərin çinli kənizlə şənlik etməsi"*
*e. "Sokratın dedikləri"*

A) 1-b,c,e; 2-a,d B) 1-c,d,e; 2-a,b
C) 1-a,d,e; 2-b,c D) 1-b; 2-a,c,d,e
E) 1-a,b,d; 2-c,e